Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 167 (8190) CÜMƏ, 2 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir

## Prezident İlham Əliyev müstəqil siyasətinin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha bəyan etdi

"Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı sarsıdan və bizə də təsirsiz ötüşməyən iqtisadi-maliyyə böhranı artıq arxada qalıb. Biz bu böhrandan şərəflə çıxa bilmişik. Öz valyuta resurslarımızı qoruya bilmişik və artırmışıq".

Bu gün istər regionda, istərsə də qlobal iqtisadiyyatda baş verən proseslərə baxmayaraq, Azərbaycanın bütün sahələr üzrə tərəqqisi fərəh doğurur. Hər gün atılan addımlar uğurlu nəticələr verir. Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirdiyi müşavirədə məhz bu uğurları dəyərləndirdi və qarşıdakı hədəfləri müəyyənləşdirdi.

Bu ilin 6 ayında reallığa çevrilən islahatların uğurları onu deməyə əsas verir ki, müəyyən edilən hədəflərə doğru inamlı addımlar davam edir. Son 6 ayda həm artan iqtisadi göstəricilərə, həm də uğurlu nailiyyətlərə nəzər yetirək:

- *ölkə iqtisadiyyatı 2,4 faiz artıb;*
- *valyuta ehtiyatları 4 milyard artaraq 49 milyard dollara yüksəlib;*
- *qeyri-neft sektoru 3,2 faiz artıb;*
- *iqtisadiyyata 6 milyard dollardan çox sərmayə qoyulub;*
- *qeyri-neft sənayesi 15,7 faiz çoxalıb;*
- *kənd təsərrüfatı 13 faiz artıb;*
- *ticarət dövriyyəsi 20 faizdən çox olub;*
- *qeyri-neft ixracı 15 faiz artıb;.*
- *sahibkarlara 50 milyon manatadək güzəştli kredit ayrılıb;*
- *əhalinin gəlirləri 6,6 faiz artıb;*
- *büdcə daxilolmaları 440 milyon manatdan çox artıb;*
- *minimum əməkhaqqı 130 manatdan 250 manata çatdırılıb;*
- *pensiya 116 manatdan 200 manata qaldırılıb;*
- *məcburi köçkünlərə verilən müavinət 50 faiz artıb;*
- *problemli kreditlərlə bağlı olan məsələ həllini tapıb;*
- *400 kilometrə yaxın avtomobil yolu çəkilib;*
- *"SOCAR karbamid" zavodu açılıb;*
- *"SOCAR Polymer"in yüksəksıxlıqlı polietilen zavodu işə düşüb.*

Göründüyü kimi, bu davamlı inkişaf ilin əvvəlində qarşıya qoyulan vəzifələrin uğurlu icrasının təsdiqidir. Ölkədə ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu, özünü rəqəmlərdə də əks etdirir.

Bütün bunlar Azərbaycanın sosial-iqtisadi inkişafının əsas göstəriciləridir. Prezident İlham Əliyevin söylədiyi kimi, bütün iqtisadi göstəricilər, uğurlu nəticələr onu deməyə əsas verir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir və qarşıda duran bütün vəzifələr icra olunur. Əgər ölkənin güclü iqtisadi imkanları olmasaydı, bu layihələrin heç biri reallaşmazdı. Hələ heç bir sosial layihə indiyədək təxirə salınmayıb. Çünki Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil.

Bu gün İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı, fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü olan güclü dövlətdir.

İqtisadi baxımdan son illərdə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Prezident İlham Əliyevin innovasiya yönümlü, yüksək rəqabətqabiliyyətli istehsala əsaslanan sosial-iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb və respublikamız dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb. Təkcə 6 ayda valyuta ehtiyatlarımızın 4 milyard dollar artması bunu təsdiq edən faktdır.

İqtisadi göstəricilərdən göründüyü kimi, ən böyük yüksəliş qeyri-neft sənayesindədir. 15,7 faiz artım onu göstərir ki, son illərdə cənab İlham Əliyevin sənayeləşmə siyasəti uğurlu nəticələr verir. Sənayenin qeyri-neft sektoru rekord addımlarla irəliləyir.

*Ardı 2-ci səh.*

## "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406; 2016, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7, maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50; Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanunu) 46-1-ci maddəsinə "Banklar" sözündən sonra "və xarici bankların yerli filialları" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2019-cu il*

## "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1611-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1611-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

## İlham Əliyev diplomatiyasının növbəti təntənəsi

### Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik etməsi həm ölkənin, həm də onun liderinin böyük nüfuzuna, müstəqil siyasətinə göstərilən etimaddır

*Cənubi Qafqazın lider ölkəsi sayılan Azərbaycan 2019-2022-ci illərdə BMT-dən sonra, dünyada ikinci mötəbər, böyük təşkilat olan, 120-si daimi, 17-si isə müşahidəçi olmaqla 137 dövləti və 10 beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatına sədrlik edəcək.*

2016-cı ilin sentyabrında hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının XVII Zirvə görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illərdə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdilliklə qərar qəbul olunmuşdur.

Bir sıra ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə bu ilin 21-26 oktyabr tarixlərində Bakıda "Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda XVIII Zirvə görüşü keçiriləcək. Həmin tarixdən etibarən Azərbaycan növbəti 3 il üçün təşkilata rəhbərlik funksiyasını yerinə yetirəcək.

*Ardı 4-cü səh.*





## İslahatçı ölkənin rekord göstəriciləri

### İlham ƏLİYEV: "Biz bundan sonra da bu yolla gedəcəyik"

İyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə ölkənin makroiqtisadi nailiyyətləri ətraflı nəzərdən keçirildi, qazanılan uğurlar və perspektivlər qeyd olundu, diqqət mərkəzində saxlanılmalı sahələr sadalandı.

O cümlədən bildirildi ki, aqrar sahədə və bütünlükdə qeyri-neft sektorunda aparılan islahatlar, həyata keçirilən nəhəng investisiya tutumlu sahələr bu ilin 6 ayı ərzində rekord göstəricilərə imza atmağa imkan vermişdir.

Öncə qeyd edək ki, cari ilin 6 ayı ərzində iqtisadiyyatın 2,4, qeyri-neft sektorunun 3,2, qeyri-neft sənayesinin isə 15,7 faiz artması uzun illər reallaşdırılan aqrar islahatların gözlənilən nəticəsidir. Yeni istifadəyə verilən "SOCAR karbamid" və "SOCAR Polymer" zavodlarının işə düşməsi, kiçik və orta sahibkarlığın inkişafı üçün zəruri addımların atılması Azərbaycana dünyanı heyrətə sala biləcək 15,7 faizlik artıma nail olmağa imkan vermişdir.

Məlumdur ki, son illər kənd təsərrüfatının davamlı surətdə sistemli inkişafı məqsədilə ayrı-ayrı sahələrin - pambıqçılığın, baramaçılığın, üzümçülüyün, tütünçülüyün və s. istiqamətlərin dirçəldilməsi üçün ardıcıl tədbirlərin həyata keçirilməsinə start verilmişdir. Bu tədbirlər ölkənin qeyri-neft sektorunun inkişaf etdirilməsi, ixrac potensialının daha da artırılması, əhalinin maddi durumunun, rifahının yüksəlməsinə xidmət edir.

*Ardı 3-cü səh.*

## BTC - qlobal beynəlxalq layihə

Müstəqil Azərbaycanın həyata keçirdiyi neft strategiyasının böyük uğuru, yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq formatının bəhrəsi olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri bu gün bütün regiona xeyir-bərəkət gətirir, yeni qlobal layihələrə yol açır.

Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan bu möhtəşəm kəmər üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçir. Bu boru xəttinin marşrutu baş nasos stansiyasının yerləşdiyi Bakı yaxınlığındakı Səngəçal terminalından başlanır və Türkiyənin Ceyhan limanında sona çatır.

BTC-ni üçüncü minilliyin nəhəng mühəndis qurğusu adlandırırlar. Belə ki, torpaq altından keçən 1768 kilometrlik yolu boyu kəmərin yerüstü qurğuları - 8 nasos, 2 aralıq ərsinburaxma, 1 təzyiqazaltma stansiyası və 101 siyirtmə məntəqəsi var.

BTC həm də layihənin maliyyələşdirilməsi strukturuna, tikinti zamanı üç ölkə ərazisində işə cəlb olunmuş insanların, keçdiyi yaşayış məntəqələrinin və kəsişdiyi çayların sayına görə maraq doğurur. Dağlarda 2830 metr yüksəkliyə qalxandan sonra dəniz səviyyəsinə enən kəmər keçdiyi coğrafi ərazilərin bir-birindən çox fərqləndiyinə görə də bənzərsizdir.

Ən diqqətçəkən cəhətlərdən biri də Bakı-Tbilisi-Ceyhanın əsl beynəlxalq layihə olmasıdır. Bunu ilk növbədə kəmərin səhmdarlarının tərkibi təsdiq edir. Başqa sözlə, hazırda BTC-nin 11 səhmdarı var. Əməliyyatçı Böyük Britaniyanın dünya şöhrətli BP şirkətidir.

*Ardı 3-cü səh.*



## UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda təşkili və keçirilməsində fəal iştirak etmiş şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

2019-cu il 30 iyun - 10 iyul tarixlərində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakı şəhərində yüksək səviyyədə təşkili və keçirilməsində, həmçinin Şəki şəhərinin tarixi mərkəzi ilə birgə Şəki Xan Sarayının Dünya İrs Siyahısına salınmasında fəal iştirak etmiş aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Qarayev Əbülfəs Mürsəl oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Məmmədəliyeva Sevda Yusuf qızı

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Kərimov Anar Qabil oğlu

**"Tərəqqi" medalı ilə**
Abbəkirov Ramil Ələkbər oğlu
Axundov Tamerlan Məmmədbağır oğlu
Əliyev Rəşad Rahib oğlu
Həsənov Seymur Qadir oğlu
İbrahimova Xumar Asif qızı
Qəmbərova Təranə Əlikram qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 avqust 2019-cu il*

## UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda təşkili və keçirilməsində fəal iştirak etmiş şəxslərin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2019-cu il 30 iyun - 10 iyul tarixlərində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakı şəhərində yüksək səviyyədə təşkili və keçirilməsində, həmçinin Şəki şəhərinin tarixi mərkəzi ilə birgə Şəki Xan Sarayının Dünya İrs Siyahısına salınmasında fəal iştirak etmiş aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Babazadə Aygün Zeynal qızı
Bağırlı Araz Fikrət oğlu
Bayramov Rizvan Mustafa oğlu
Eyvazzadə Vasif Rasif oğlu
Əhmədov Əfsun Məzahir oğlu
Əliyeva Günay Sabir qızı
Xıdırov Ələkbər Şahmar oğlu
Pietro Laureano
Sami Yusuf.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 avqust 2019-cu il*

## H.H.Yagizarovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Hacı Murad Hacı Əhməd oğlu Yagizarov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 avqust 2019-cu il*

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820; 2019, № 1, maddə 42; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1543-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.0.2-ci və 7.0.1-ci maddələrdə "həddi də" sözləri "həddi və Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar da" sözləri ilə əvəz edilsin.
2. 8.0.13-cü maddə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2019-cu il*

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1604-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1604-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

## Ağdaş rayonunun Orta Qəsil-Şordəhnə-Qarağan Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On yeddi min nəfər əhalinin yaşadığı 16 yaşayış məntəqəsini birləşdirən Orta Qəsil-Şordəhnə-Qarağan Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 18,7 milyon (on səkkiz milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 avqust 2019-cu il*

## K.Ə.Həsənovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında əmlak məsələləri sahəsində dövlət idarəetməsinin təşkilində səmərəli fəaliyyətinə görə Kərəm Əvəz oğlu Həsənov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 avqust 2019-cu il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7, maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45; Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508 nömrəli və 29 mart tarixli 1550-VQD və 1552-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 17.6-1-ci maddə əlavə edilsin:

"17.6-1. xarici ölkələrin müvafiq orqanları tərəfindən Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə çoxdəfəlik giriş vizalarının rəsmiləşdirilməsi üçün tutulan rüsumun məbləği bu Qanunla eyni hərəkətlərə görə müəyyən edilmiş məbləğdən fərqli olduqda, dövlət rüsumunun dərəcəsi müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həmin ölkələrdə Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə tutulan rüsum səviyyəsində müəyyən oluna bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2019-cu il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1606-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1606-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 7 (I kitab), maddə 1489, № 12 (I kitab), maddə 2552; 2019, № 1, maddə 95; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 iyun tarixli 753 nömrəli Fərmanı) 2.2-ci bəndinə "5.5-ci," sözlərindən sonra "17.6-1-ci," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

# Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir

*Əvvəli 1-ci səh.*

Bu sahədə, əlbəttə ki, cari ildə istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bu ilin əvvəlində Sumqayıtda "SOCAR Polymer"in yüksəksıxlıqlı polietilen və "SOCAR karbamid" zavodlarının istifadəyə verilməsi də bu uğurlar sırasındadır. Ümumiyyətlə, bu gün regionlarda yaradılan 9 sənaye parkı və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən artıq 5,7 milyard manatı faktiki olaraq qoyulub və bu layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda bu layihələrin fəaliyyəti nəticəsində artıq 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi ixraca yönəlib.

Bu il eyni zamanda Hacıqabul və Sabirabad sənaye məhəllələrinin açılışları da nəzərdə tutulub. Bu isə ölkədə kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımların atıldığının təsdiqidir.

Prezident müşavirədə böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlardan söz açaraq vurğuladı ki, bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir: "Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik".

Xatırladaq ki, dövlət başçısının sərəncamlarına əsasən qəbul edilən iki böyük sosial islahat paketi xalqın rifah halının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımdır. Birinci paket 3 milyon insanı əhatə etdi və ümumi illik maliyyə tələbi 1,6 milyard manata bərabər idi. Bu sosial islahat paketi artıq tam şəkildə icra olunub və həm pensiyaçılar, həm də işləyən vətəndaşların əməkhaqları artıb.

İkinci sosial paketlə bağlı hazırlıq işləri artıq yekunlaşıb və sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışan əlavə 400 min insanın kateqoriyalarından asılı olaraq 20-50 faiz aralığında əməkhaqlarının artırılması, eyni zamanda oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı bütün hazırlıq işləri başa çatıb. Ümumilikdə hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manatdır, növbəti il üçün 3 milyard manat və 4,2 milyon insanı əhatə edəcəkdir. Minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstərici olacaq.

Ölkə rəhbəri həmçinin ilin əvvəlində qəbul edilən regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü dövlət proqramının icrası prosesinə də toxunaraq vurğuladı ki, bu günə qədər həllini tapmayan məsələlər genişmiqyaslı proqramın icrası nəticəsində öz həllini tapacaq. Bununla yanaşı həm elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və uğurlu nəticələr var. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan vəsaitlərin böyük hissəsi, ilk növbədə, bu proqramın əsas istiqaməti olan infrastruktur layihələrinin icrasına yönəldilib. Həmçinin dövlət proqramının icrası kənd yerlərini də əhatə etməklə məşğulluğun təmin olunması istiqamətində atılan vacib addımlardan biridir. Bu gün qeyd etmək olar ki, regionlarda yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur artıq öz bəhrəsini verməkdədir və bölgələrdə məşğulluğun təmin olunmasında əsas rol oynayır.

Cari ildə reallaşacaq layihələrə gəlincə isə dövlət başçısı bəyan etdi ki, ilin sonunadək 10 min ailənin bu il Özünüməşğulluq Proqramı ilə əhatə edilməsi planlaşdırılır. Bundan başqa, bu il bir neçə şəhərin içməli su problemi həll olunacaq, 10 şəhərdə mərkəzi xəstəxana, 3 şəhərdə olimpiya idman kompleksi tikiləcək, sahibkarlara 120 milyon manat həcmində güzəştli kredit veriləcək. Digər sosial infrastruktur layihələrinin icrası ilə bağlı konkret proqramlar, planlar var və bunların hamısı Dövlət İnvestisiya Proqramında öz əksini tapır.

Azərbaycanın innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməli olduğunu vurğulayan cənab İlham Əliyev bəyan etdi ki, biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bu gün iqtisadi sahədə Azərbaycanın dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasında olduğunu bir daha təsdiqləyir. Ancaq dövlət bununla paralel olaraq, sosial sahəyə də çox böyük diqqət göstərir. Reallaşan, yəni milyardlarla dollar həcmində ölçülən bu layihələr dövlət siyasətinin göstəricisidir: "Bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir. Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ilin sonuna qədər nəzərdə tutulan bütün vəzifələr icra ediləcəkdir".

Əldə edilən bu nailiyyətlər və reallaşmaqda olan yeni-yeni sosial-iqtisadi layihələr onu deməyə əsas verir ki, 2019-cu ildə də qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək, Azərbaycan iqtisadiyyatı öz inkişaf dinamikasını qoruyub saxlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsi Qurban bayramı ilə bağlı tövsiyələrini açıqlayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qurban bayramı ilə bağlı tövsiyələrini açıqlayıb.

QMİ-nin mətbuat xidmətindən bununla bağlı AZƏRTAC-a verilən məlumatda deyilir: "İslam dünyasının müqəddəs bayramlarından biri - "Eydül-Ədha" - Həzrət İbrahim əleyhissəlamın adı ilə bağlı olan Qurban bayramında müsəlman ümməti üçün böyük sevinc, fərəh, birlik və bərabərlik vardır. Müsəlmanlar Qurban bayramında bir-birlərini həcc, fədakarlıq, təvazökarlıq və bağlılıq günü kimi təbrik edir, valideynlərinə, yaxın qohumlarına baş çəkir, aztəminatlı ailələrə yardım edirlər. Bu, Həzrət İbrahimin gələcək nəsillər üçün örnək olan, Uca Yaradana bağlılığını sübut edən gözəl bir gün, İlahi fürsətdir. Qurban bayramı sevinc, təbrik və xatırlama günüdür. Hər bir imkanlı müsəlman üçün vacib buyurulan Həcc mərasiminin ən şərafətli məqamı olan, günahların Allah tərəfindən bağışlanmasını və Uca Yaradana şükrsənanı təcəssüm etdirən mübarək Qurban bayramı ərəfəsində Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan xalqını və bütün müsəlmanları təbrik edir, bu əziz günlərdə Uca Yaradandan hamıya mərhəmət və məğfirət diləyir.

Azərbaycan üfüqündə Zül-hiccə ayının hilalının görünməsinə uyğun olaraq Qurban bayramı Zül-hiccənin 10-na, Miladi təqvimlə 12 avqust tarixinə təsadüf edir. Bayram münasibətilə iki gün dövlətimiz tərəfindən qeyri-iş günü elan edilib. Dindarlar adından Qurban bayramının layiqli şəkildə keçirilməsinə imkan və şərait yaradan dövlətimizə dərin minnətdarlığımızı və xeyir-dualarımızı çatdırırıq. Bu müqəddəs günlərdə vətənimizin xoşbəxt gələcəyi, xalqımızın rifah və səadəti, işğal altında olan torpaqlarımızın azad olunması, dövlətçiliyimizin tərəqqisi üçün dualar edirik.

Bildiririk ki, qurban kəsmək əsasən Məkkədə Həcc ziyarətində olan zəvvarlara vacibdir. Digər yerlərdə isə imkanlı adamların qurban kəsmələri Allah-Təala yanında bəyənilib - müstəhəb əməllərdən hesab olunur. Qurban ətindən fəqir və kasıb ailələrə paylamaq gərəkdir ki, onlar bayram ab-havasını yaşasınlar. Bu, böyük savabdır. Qurban kəsilən heyvan sağlam və kök olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa layiq və məqbul sayılmır. Qurban qoyun, keçi, öküz, inək və dəvə olmalıdır. Bu heyvanlar müəyyən yaş həddinə çatmalıdır. Keçi və qoyunun bir, öküz və inəyin iki, dəvənin isə beş ili tamam olmalıdır. Qurban ətinin satılması haramdır. Xırdabuynuzlu heyvan (qoyun, keçi) bir nəfər üçün kəsilməlidir. Bir neçə şəxs cəmləşib bir iribuynuzlu heyvanı qurban kəsə bilər. Yaxşı olar ki, bu zaman bölgü aparanda həmin şəriklər biri-birinə halallıq versinlər. Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə götürə bilər, digər hissənin fəqir və kasıb ailələrə, üçüncü hissənin isə hədiyyə kimi qohum-əqrəbalara paylanması tövsiyə olunur.

Qurbanlıq heyvan şəriət qaydalarına uyğun olaraq kəsilərkən "Bismillahi və billəhi vəllahu əkbər" deyilməlidir. Qurban duasının oxunması məsləhətdir. Tövsiyə edərdik ki, bu müqəddəs bayram günlərində qurbanların kəsilməsi baytarlıq və sanitariya qayda-qanunlarına ciddi əməl olunmaqla münasib yerlərdə icra edilsin. Həmçinin qurbanların azyaşlı uşaqların, habelə heyvanların gözü qarşısında kəsilməsi məsləhət deyil.

Dünya müsəlmanlarının ən şərafətli bayramlarından olan, insanı öz Yaradanına yaxın edən Qurban bayramının sevincini valideynlər, doğmalarla yanaşı qaçqın, köçkün, kimsəsiz soydaşlarımıza, maddi sıxıntı çəkən insanlara da yaşatmaq, onu hamı ilə birgə könül xoşluğu ilə keçirmək savabdır. Qurban kəsməyə imkanı olmayanların Qurban günü ibadət və duaları da Allah-Təala yanında savab əməllərdəndir.

Allah-Təala insanların mənən saflaşmaları və həmrəyliyə nail olmaları məqsədilə qərar verdiyi bu bayram günlərində kəsdiyiniz qurbanları, verdiyiniz ehsanları, etdiyiniz duaları qəbul etsin. Allah Vətənimizi hifz etsin. Amin!".

## İŞİMİZ, GÜZƏRANIMIZ

# İslahatçı ölkənin rekord göstəriciləri

## İlham ƏLİYEV: "Biz bundan sonra da bu yolla gedəcəyik"



Əvvəli 1-ci səh.

Ölkənin aqrar sektorunda onilliklər boyu tətbiq edilən nəhəng makroiqtisadi layihələr kənd təsərrüfatının simasını tamamilə dəyişmişdir. Ötən dövr ərzində əksər sahələr üzrə görülən böyük işlərin nəticələrini bu gün fermerlər, təsərrüfatla məşğul olan şəxslər, kənd sakinləri öz həyat tərzlərində və əldə etdikləri qazanclarında hiss edirlər. Bitkiçilikdə yeni texnologiyaların, müasir aqrar biliklərin tətbiqi, yeni bağların salınması isə bitkiçilikdə cari ilin 6 ayında 25 faizlik artıma nail olmağa imkan vermişdir.

Dövlət başçısı müşavirədə aqrar sektorun uğurlarını belə qiymətləndirdi: "Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir".

Həqiqətən, uzun illər ərzində kənd təsərrüfatında görülmüş sistemli tədbirlər müsbət nəticələrini verməkdədir. Bütün sahələrdə, həmçinin bitkiçilik və heyvandarlıqda dinamik artım müşahidə edilir. Taxılçılığa ayrılan xüsusi diqqət 1 milyon 12 min hektarda taxıl əkinini həyata keçirməyə, taxıl biçinini 20 gün tez başa çatdırmağa və məhsuldarlığı ötən illə müqayisədə 2 sentner artırmağa imkan vermişdir. Lizinq fəaliyyəti ilə bağlı həyata keçirilən islahatlar bazarda tam liberallaşmaya və texnikanın qiymətinin təxminən 30 faiz ucuzlaşmasına səbəb olmuşdur.

Subsidiyalarla bağlı islahatlar da diqqət mərkəzindədir. Gübrələrlə əlaqədar liberallaşma isə gələn ildən tam həyata keçiriləcək. Nəticədə gübrənin həm əlçatanlığı təmin ediləcək, həm də qiymətində kifayət qədər ucuzlaşma baş verəcək.

Müşavirədə vurğulandı ki, aqrar sektordakı islahatların vacib istiqamətlərindən biri də elektron kənd təsərrüfatının təşviqidir. Artıq 300 mindən çox fermer elektron kənd təsərrüfatında qeydiyyatdan keçmişdir. Gələn ilin əvvəlindən isə subsidiyaların verilməsi tam elektron formada həyata keçiriləcək. Bu da ona imkan yaradacaq ki, fermerlərin əkin sahələri əvvəlcədən proqnozlaşdırılaraq planlaşdırılsın. Eyni zamanda islahatlarda vacib istiqamətlərdən biri yeni subsidiya sisteminin tətbiqidir. Hazırda bununla bağlı hazırlıq işləri həyata keçirilir. Gələn ilin yanvarından subsidiyaların yeni sistemlə veriləcəyi nəzərdə tutulur.

Prezident İlham Əliyev müşavirəyə yekun vurarkən kənd təsərrüfatının hər bir ölkə üçün önəmli sahə olduğunu bir daha qeyd etdi: "Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün əsas vəzifədir, eyni zamanda biz öz ixrac imkanlarımızı da genişləndiririk. Fermerlərə əlavə güzəştlər edilir. Texnika ilə bağlı təminat yüksək səviyyədədir. Bu il 700-dən çox texnikanın satılması artıq təmin edilibdir. Əvvəlki illərdə böyük sayda kənd təsərrüfatı texnikasının alınması hesabına biz bu sahənin inkişafına nail ola bildik. Əlbəttə, burada müasir texnologiyalar, müasir suvarma sistemləri əsas rol oynayır. İndi Azərbaycanda azot gübrəsi zavodu da fəaliyyət göstərir. Yəni xaricdən azot gübrəsinin alınmasına ehtiyac qalmır. Pivot tipli suvarma sistemləri Azərbaycanda istehsal edilməyə başlamışdır. Yəni bu sahədə biz özümüzü təmin etmək üçün əlbəttə ki, çox ciddi addımlar atırıq".

Məlum olduğu kimi, kənd təsərrüfatında fermerləri və istehlakçıları narahat edən ciddi problemlərdən biri kənd təsərrüfatı məhsullarının tarladakı və piştaxtadakı qiymətləri arasındakı fərqin böyük olmasıdır. Bəzən elə olur ki, fermer məhsulunu hətta dəyər-dəyməzinə belə, sata bilmir. İstehlakçı isə əldən-ələ keçib qiyməti bahalaşan həmin məhsulu ala bilmir. Elə buna görə də dövlət başçısı inflyasiyanın aşağı səviyyədə olmasına baxmayaraq bəzi hallarda süni qiymət artımının müşahidə olunduğunu vurğuladı, müvafiq qurumların qarşısında bu məsələnin həll edilməsini bütün ciddiliyi ilə qaldırdı: "Mənə məlumat verilən kimi, dərhal göstərişlər verilir. Yəni istehlak bazarına daim nəzarət olmalıdır. Çünki burada kartel sövdələşmələri də istisna deyil. Əlbəttə ki, biz süni qiymət artımına yol verə bilmərik. Çox ciddi nəzarət mexanizmi olmalıdır. Bu sahə daim diqqət mərkəzində olmalıdır".

Müşavirədə dövlət başçısı bir daha islahatlara götürülən səmtin dəyişməyəcəyini bəyan etdi, ölkənin innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf edəcəyini dilə gətirdi. Qeyd etdi ki, bütün sahələrdə əldə etdiyimiz uğurlar beynəlxalq reytinq agentliklərinin dərc etdiyi hesabatlarda əks olunur, Azərbaycan nümunəvi ölkə kimi təbliğ edilir. Prezident İlham Əliyev sonda bir daha nəzərə çatdırdı ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır: "Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***



# "Ötən mövsüm pambıq əkdiyim sahənin hər hektarından 3 min manat qazanc götürmüşəm"

"Üç ildir pambıq əkini ilə məşğulam. 2016-cı ildə Sabirabadda dövlət başçısı İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafına dair keçirilmiş respublika müşavirəsində iştirak etmişəm. Həmin ildən də pambıq əkirəm. Dövlət dəstəyindən yararlanaraq birinci il 20, ikinci il 100, bu il 200 hektar pambıq əkmişəm".

Bu sözləri Sabirabadın Sərxanbəyli kəndinin sakini, fermer Dədəkişi Dövlətov deyib. Pambıqçılığın inkişafı sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərin müsbət nəticələr verdiyini deyən fermer qeyd edib ki, pambıqçılar lazım olan texnika və gübrələri güzəştli şərtlərlə alırlar: "Çətinliyimiz yoxdur, sahələri vaxtında suvarırıq. Bu səbəbdən cari il məhsul ötən ildəkindən də çox olacaq. Mənimlə yanaşı, çoxları pambıq əkini ilə məşğuldur. Ötən ilin nəticələri bir daha göstərdi ki, pambıqçılıq kənd təsərrüfatında ən gəlirli sahələrdən biridir. Bunu pambıqdan əldə etdiyimiz gəlirdən də gördük. Şəxsən mənim hər hektardan xalis gəlirim 3000 manatdan çox oldu".

Sovet dövründə də pambıq becərdiyini xatırladan Dədəkişi Dövlətov kəndliyə yaradılan şəraitdən razıdır: "Sağ olsun dövlətimiz, bizə hər şəraiti yaradıb - torpaq verib, güzəştli şərtlərlə texnika və gübrə alırıq, subsidiya ayrılır. Biz də çalışıb bunun qarşılığını verməliyik".

Məlumat üçün bildirək ki, ötən il 17 min 292 ton xam pambıq istehsal edən sabirabadlı əkinçilər cari il 8 min 630 hektar sahəyə çiyid səpmişlər. Becərmə zamanı bütün tədbirlər vaxtında həyata keçirilmiş, istehsalçılar texnika, toxum və dərman preparatları ilə tam təmin olunmuşlar.

# BTC - qlobal beynəlxalq layihə

Əvvəli 1-ci səh.

Bu şirkət layihədə 30,1 faizlə payla iştirak edir. Digər səhmdarlar AzBTC (Azərbaycan, 25 faiz), "Şevron" (ABŞ, 8,9 faiz), "Ekvinor" (Norveç, 8,71 faiz), TPAO (Türkiyə, 6,53 faiz), "Eni" (İtaliya, 5 faiz), "Total" (Fransa, 5 faiz), "İtoçu" (Yaponiya, 3,4 faiz), "İnpeks" (Yaponiya, 2,5 faiz), "EksonMobil" (ABŞ, 2,5 faiz) və ONGC (BTC) Limited (Hindistan, 2,36 faiz) şirkətləridir.

BTC-nin Azərbaycan hissəsində boru tikintisini Yunanıstanın CCİC şirkəti həyata keçirib. Ölkəmizdəki yerüstü obyektləri isə Fransa-ABŞ alyansı olan "Spi Kapaq-Petrofak" inşa edib. Bu alyans, eyni zamanda Gürcüstanda BTC-nin tikintisinə aid bütün işləri görüb. Kəmərin Türkiyə hissəsini həmin ölkənin dövlət şirkəti BOTAŞ inşa edib.

Bu əsas podratçılar üç ölkənin ərazisində gedən tikinti zamanı işə minlərlə yerli sakini və çoxsaylı subpodratçıları cəlb ediblər.

BTC üçün tranzit ölkələrin xaricində də çoxlu işlər görülüb. Məsələn, kəmərin borularını bu sahədə ixtisaslaşmış və dünyada sayılıb-seçilmiş "Sumitomo" (Yaponiya) şirkəti istehsal edib. ABŞ, Kanada, Böyük Britaniya, İtaliya, Finlandiya, Almaniya, Türkiyə, Çexiya və bir sıra başqa ölkələrdə də BTC üçün avadanlıqlar hazırlanıb. Bunlar nasos və ölçmə qurğuları, turbinlər, mühərriklər, siyirtmələr, dizel generatorları və s.-dir.



BTC-ni maliyyələşdirmiş qrupun tərkibi də maraq doğurur. Layihənin xərclərinin 30 faizini səhmdarlar öz vəsaitləri hesabına ödəyiblər. Ümumi xərclərin qalan 70 faizi isə üçüncü tərəflərdən maliyyələşmə formasında təmin olunub. BTC üçün borcları, ixrac kreditlərini və risk sığortalarını təmin edən qrup dörd hissədən ibarətdir. Bunların birincisi çoxtərəfli kredit agentlikləri - Avropa Yenidənqurma və İnkişaf Bankı, Dünya Bankının özəl sektor üzrə qolu olan Beynəlxalq Maliyyə Korporasiyasıdır. İkinci hissə yeddi ölkədən olan İxrac Əməliyyatlarının Kreditləşdirilməsi Agentlikləri və Siyasi Risklər üzrə sığorta şirkətləridir. Üçüncü hissə 15 kommersiya bankından olan sindikat, sonuncu isə layihənin özünün birinci dərəcəli sponsor-kreditor kimi çıxış edən dörd səhmdarıdır.

BTC tam bir sistem kimi işə düşdükdən sonra, yəni 2006-cı ilin iyul ayından "Azəri-Çıraq-Günəşli" yataqlarının neftini və "Şahdəniz"dən çıxarılan kondensatı dünya bazarına nəql edir. Kəmərə, eyni zamanda Qazaxıstan, Türkmənistan və Rusiya neftinin də vurulması BTC-nin beynəlxalq layihə olduğunu təsdiqləyən daha bir önəmli faktdır.

Keçən il mayın 29-da "Cənub qaz dəhlizi"nin açılış mərasimindəki nitqində Prezident İlham Əliyev BTC-nin fəaliyyətini belə xarakterizə etmişdir: "2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

***Flora SADIQLI, "Azərbaycan"***

# Bakıda Avropa İttifaqı və Kənd Təsərrüfatı Nazirliyinin tvinninq layihəsi təqdim edilib

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Kənd təsərrüfatı sahəsinə dövlət dəstəyinin effektivliyinin və səmərəliliyinin artırılması üçün Kənd Təsərrüfatı Nazirliyinin potensialının gücləndirilməsi" adlı tvinninq layihəsinin təqdimatı keçirilib.

Kənd Təsərrüfatı nazirinin müavini İlhamə Qədimova nazirliyin indiyədək Avropa İttifaqı ilə birlikdə bir sıra layihələri uğurla həyata keçirdiyini bildirib. O qeyd edib ki, 20 ildən artıq müddətdə davam edən əməkdaşlığımız geniş təcrübə mübadiləsinə imkan verib. "Yeni layihə Azərbaycanda kənd təsərrüfatının inkişafında, bu sahə üçün əhəmiyyətli olan kadrların hazırlanmasında və biliklərin artırılmasında xüsusi rol oynayacaq", - deyə İ.Qədimova diqqətə çatdırıb.

Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin Əməkdaşlıq şöbəsinin rəhbəri Simona Gatti yeni layihənin Azərbaycanın kənd təsərrüfatı və kənd yerlərinin inkişafı potensialının davamlı artımına mühüm töhfə verəcəyinə əminliyini bildirib. Onun sözlərinə görə, layihənin müxtəlifliyi ona ətraf mühiti və kəndin mədəni irsini qorumağa imkan yaradacaq.

Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Mirzə Əliyev isə çıxışında deyib ki, aqrar sahəyə dövlət dəstəyi bilavasitə kənd yerlərinin inkişafına xidmət edir. Çünki kənddə yaşayan insanın həyat səviyyəsi aqrar sahədə məşğulluqla bağlıdır.

AKİA-nın sədri tvinninq layihəsi haqda ətraflı məlumat verərək qeyd edib ki, layihənin məqsədi Avropa İttifaqı Ümumi Kənd Təsərrüfatı Siyasətinin uğurlu mexanizmlərinin və ən yaxşı təcrübələrin müəyyənləşdirilməsi yolu ilə Azərbaycanda kənd yerlərinin inkişafının həyata keçirilməsi üçün milli siyasət və vasitələrin gücləndirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinə dəstək verməkdir. O deyib: "Kənd təsərrüfatı sahəsində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və siyasi iradəsi ilə başlanılmış yeni islahat mərhələsində dünyanın qabaqcıl ölkələrinin aqrar sahədəki təcrübələrini öyrənir, bizə uyğun olanlardan faydalanırıq. Avropanın bir sıra ölkələri həm həcmə görə, həm də innovasiyaların tətbiqi baxımdan dünyanın ən inkişaf etmiş kənd təsərrüfatı məhsulları istehsalçıları siyahısındadır. Keçdiyimiz islahat mərhələsində Avropa ölkələri bizim üçün müsbət nümunələrdəndir".

M.Əliyevin sözlərinə görə, layihə çərçivəsində subsidiya sisteminin daha da təkmilləşdirilməsi üçün işlər görüləcək.

Qeyd edək ki, layihə kənd təsərrüfatına dair strategiya və siyasətin hazırlanması və kənd yerlərinin inkişafının təşviqi ilə yanaşı, Aİ təcrübəsinə əsaslanan informasiya texnologiyaları prosedurlarının və kompleks idarəetmə və nəzarət sisteminin hüquqi aspektləri də daxil olmaqla, əlverişli inzibati mühitin inkişaf etdirilməsi və müvafiq kadr potensialının qurulmasını nəzərdə tutur.

# Ölkə üzrə 3,1 milyon tondan çox taxıl yığılıb



Azərbaycanda taxıl biçini davam edir. İyulun 30-na olan operativ məlumata görə, sahələrin 99,2 faizində - 341 min 116 hektar ərazidə arpa, 662 min 627 hektarda buğda biçini başa çatıb. Ümumilikdə 1,003 milyon hektardan 3 milyon 161 min 692,4 ton taxıl yığılıb. Orta məhsuldarlıq 31,4 sentner olub.

Abşeron, Ağdam, Ağdaş, Ağcabədi, Ağstafa, Ağsu, Astara, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Cəbrayıl, Daşkəsən, Şabran, Füzuli, Naftalan, Göyçay, Hacıqabul, Xaçmaz, Xızı, İmişli, İsmayıllı, Kürdəmir, Qax, Qazax, Qəbələ, Quba, Masallı, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Tərtər, Tovuz, Ucar, Yevlax, Zaqatala və Zərdabda taxıl biçini yekunlaşıb, Naxçıvan Muxtar Respublikasında, Qobustan, Şamaxı və Şəki rayonlarında isə başa çatmaq üzrədir.

Qobustan ərazisində arpa əkilmiş 9382, buğda əkilmiş 22258 hektarın isə 21948 hektarı biçilib. Arpa üzrə məhsuldarlıq 23,7, buğda üzrə 25,3 sentnerdir. Naxçıvan Muxtar Respublikasında isə arpa əkilmiş 8579 hektarın 8469, buğda əkilmiş 24729 hektarın 23037 hektarında biçin yekunlaşıb. Məhsuldarlıq müvafiq olaraq 29,7 və 31 sentnerə çatıb. Goranboy, Şəmkir və Qusar rayonlarında da taxıl biçinində yüksək nəticələr əldə edilib.

# Vergi daxilolmalarında qeyri-neft sektorunun payı 70 faizdən çoxdur

Bunu Vergilər naziri Mikayıl Cabbarov iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə deyib.

O qeyd edib ki, bu, 2018-ci ildəki 65,8 faizlə müqayisədə əhəmiyyətli artımdır: "Ümumilikdə qeyri-neft sektoru üzrə daxilolmanın artım tempi 14,3 faiz təşkil edib. Bu da iqtisadiyyatın müvafiq sektorunun artım tempini üstələyir və illik proqnozun 51,1 faizini artıq icra etmişik. Qeyri-neft sektorunun özündə isə özəl sektorun payı çox yüksəkdir - 77 faiz özəl sektor tərəfindən təmin edilib. Vergi islahatları nəticəsində əmək müqavilələrinin sayında əhəmiyyətli artım qeydə alınıb. Toplam 6 ay ərzində 101 min yeni əmək müqaviləsi qeydiyyata alınıbdır. Bu rəqəmin 77 mini özəl qeyri-neft sektorunda qeydə alınıbdır. Bu da Sizin göstərişinizlə həyata keçirilən vergi güzəşti islahatının birbaşa nəticəsidir. Onu da qeyd etmək istəyirəm ki, vətəndaşlarımızın sərəncamında yalnız bu vergi




güzəştindən qalan məbləğ 6 ay ərzində 150 milyon manat təşkil edib, hansı ki, əvvəlki illərdə vergi qismində ödənilirdi. Bu proses davam edir. Bu günə olan rəqəmlər də onu göstərir ki, iyul ayında da bu proses eyni sürətlə davam edir. Aktiv obyektlərin sayında artım müşahidə edirik - 14 faiz aktiv, əlavə dəyər vergiödəyicilərinin sayında isə 40 faiz artım müşahidə edirik", - deyə nazir bildirib.

# İlham Əliyev diplomatiyasının növbəti təntənəsi

Əvvəli 1-ci səh.

Təbii ki, bu tarixi hadisə Azərbaycanın növbəti diplomatik uğuru kimi qiymətləndirilməlidir.

Ötən həftə isə Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin Qoşulmama Hərəkatına hazırda sədrlik edən Venesuela Bolivar Respublikasının Karakas şəhərində Hərəkatın Nazirlər Şurasının iclasında iştirakı zamanı Bakıda keçiriləcək Zirvə Görüşünə hazırlıqla bağlı məsələlər müzakirə edilib. Tədbirin sonunda Qoşulmama Hərəkatının məqsəd və prinsipləri ilə əlaqəli beynəlxalq sülh, təhlükəsizlik və sosial-iqtisadi inkişafa dair bir çox məsələlərin əks olunduğu yekun sənəd qəbul olunub. Sənəddə Azərbaycanın mövqeyini dəstəkləyən bənd öz əksini tapıb. Eyni zamanda BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələrə baxmayaraq Ermənistan və Azərbaycan arasında münaqişənin həll edilməmiş qaldığı, beynəlxalq və regional sülh və təhlükəsizliyə təhdid yaratmaqda davam etdiyi nazirlər tərəfindən təsdiqlənib. Həmçinin sözügedən bənddə Qoşulmama Hərəkatına üzv ölkələrin nazirləri BMT Nizamnaməsində əks olunan gücdən istifadə etməmək prinsipinin vacibliyini bir daha təsdiqləyərək tərəfləri münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində danışıqlar yolu ilə nizamlanması axtarışını davam etdirməyə çağırırlar.

Azərbaycanın 2011-ci ildən üzv olduğu Qoşulmama Hərəkatı beynəlxalq münasibətlərin tənzimlənməsində mühüm rolu olan çoxtərəfli platformadır. 137 dövlətin bir araya gəldiyi Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Əsas məqsədi beynəlxalq hüququn norma və prinsipləri əsasında dünyada sülhün, təhlükəsizliyin qorunmasına və tərəqqiyə töhfə vermək olan hərəkat qlobal problemlərin həlli və müasir dövrün çağırışlarına cavab vermək baxımından bu gün xüsusi əhəmiyyət kəsb edir.

Hərəkata üzvlük beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq proseslərinə ölkəmizin daha yaxından cəlb olunması, müxtəlif dövlətlərlə ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsi üçün əlverişli imkan yaradıb. Qoşulmama Hərəkatına üzv olduğu nisbətən qısa müddət ərzində Azərbaycan özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb.

Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmizin məqsədi üzv dövlətlərlə birlikdə Hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə və dayanıqlı inkişafa öz töhfəsini artırmaq olacaq. Prezident İlham Əliyevin sərəncamı ilə XVIII Zirvə Görüşünün təşkili məqsədilə Təşkilat Komitəsi də yaradılıb.

Son onillikdə qlobal tərəfdaşlığın, sivilizasiyalararası əməkdaşlığın ən səmərəli platformasına çevrilən, onlarca beynəlxalq təşkilata həm sədrlik, həm də tədbirlərə evsahibliyi edən Azərbaycana bu Hərəkata rəhbərliyin həvalə edilməsini yalnız onun təcrübəsi ilə əlaqələndirmək yanlış olardı. Əlbəttə ki, bu qərarın qəbulunda təcrübədən daha üstün mövqe nüfuz və qətiyyət amilidir. Çünki Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasət Azərbaycanı etibarlı və məsuliyyətli tərəfdaşa çevirib. Bu isə Azərbaycan xarici diplomatiyası üçün böyük nailiyyətdir və dünya bu zəfəri aydın görür.

Qoşulmama Hərəkatı müasir dünyada öz aktuallığını daha da artırır. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rola malikdir. Hərəkatın prinsipləri və niyyətləri üzv ölkələrin sabit inkişafına yardım edir. Qoşulmama Hərəkatı hansısa tərəfin hegemonluğuna və digər ölkələrin sabitliyinə olan hücumlara qarşıdır.

Digər tərəfdən Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçiriləcək Zirvə Görüşünün böyük rəmzi mənası var. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad Sammitindən 30 il sonra Qoşulmama Hərəkatında iştirak edən ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən evsahibliyi edəcək. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha dünyaya nümayiş etdirəcək.

Ötən il aprelin 5-6-da Bakıda Qoşulmama Hərəkatının "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda xarici işlər nazirlərinin konfransında Prezident İlham Əliyev bu təşkilatın fəaliyyətini dəyərləndirərkən bildirmişdi ki, Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır. Hərəkat beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir: "Azərbaycan Qoşulmama Hərəkatının nisbətən yeni üzvüdür. Biz bu ailəyə 2011-ci ildə qəbul olunduq, dərhal təşkilatın və onun üzvlərinin dəstəyini hiss etməyə başladıq. Bu dəstək Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi proseduru zamanı nümayiş olundu. Bu 2011-ci ildə, ölkəmizin təşkilata qəbul olunduğu eyni ildə baş verdi və biz tərəfdaşlarımızın güclü dəstəyini hiss etdik. Bu, o qədər də asan məsələ deyildi, çünki bizim güclü rəqiblərimiz var idi və həmin rəqiblər təşkilatımıza üzv olmayan ölkələr idi. Seçilməyimiz üçün 16 raund tələb olundu və biz 155 dövlətin dəstəyi ilə qeyri-daimi üzv seçildik. Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının dəstəyi bizim ən mötəbər beynəlxalq quruma üzv seçilməyimizdə həlledici rol oynadı".

Dövlət başçısı onu da bəyan etdi ki, Azərbaycan "Ekspo 2025"ə öz namizədliyini irəli sürən Qoşulmama Hərəkatının yeganə üzvüdür. Bu addımın özü göstərir ki, Azərbaycan bu cür mühüm qlobal tədbiri keçirməyə qadirdir.

Onu da əlavə edək ki, paytaxtımızda keçirilən son konfransda qəbul olunan Bakı Bəyannaməsində ölkəmizin maraqları baxımdan fundamental məsələlər öz əksini tapıb. Sənədin giriş hissəsində Qoşulmama Hərəkatının suverenlik və dövlətlərin suveren bərabərlik, ərazi bütövlüyü və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutduğu, təcavüz və sülhün pozulması hallarının qarşısının alınması üçün effektiv tədbirlərin həyata keçirilməsi, həmçinin dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı hərbi təcavüzdən kənar durulması təsbit olunub.

Ümumiyyətlə, 2012-ci ildən etibarən Qoşulmama Hərəkatının qəbul etdiyi bütün sənədlərdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına birmənalı dəstək və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsiplər əsasında həllinə çağırış ifadə olunur.

2012-ci ildə Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun Yekun Sənədində Ermənistan və Azərbaycan arasında münaqişənin dövlətlərin ərazi bütövlüyünə hörmət, ərazi bütövlüyünə qarşı güc tətbiq etməmək və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll edilməsinə dəstək ifadə olunmuşdu. 120 ölkənin münaqişənin məhz Ermənistan və Azərbaycan arasında olmasını təsbit etməsi də çox əlamətdar məqam idi. Həmin il Hərəkatın Dövlət və Hökumət Başçılarının Zirvə Görüşünün Yekun Sənədində də üzv dövlətlər münaqişənin məhz Azərbaycanın "ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində" həllinə dəstəyi ifadə etmişlər. Həmçinin 2014-cü ildə də Hərəkatın sammitinin yekun sənədində eyni məzmunlu münasibət bildirilib.

Yeni dünya sisteminin reallıqlarına uyğunlaşdırılan fəaliyyətilə insan yaşayan bütün qitələrdə, bölgələrdə təmsilçi üzvü olan Hərəkatın prinsipləri də ədalətlidir. 10 əsas müddəa içərisində - dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək; digər ölkələrin daxili işlərinə qarışmaqdan çəkinmək; böyük dövlətlərin hər hansı xüsusi maraqlarına xidmət etmək üçün kollektiv müdafiə tədbirlərinin istifadəsindən çəkinmək; digər ölkələrin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir fəaliyyətdən, eləcə də güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən imtina etmək; qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək; ədalət və beynəlxalq öhdəliklərə hörmət etmək kimi məqsədlər əslində Qoşulmama Hərəkatının mahiyyətini müfəssəl izah edən məqamlardır.

Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyi məsələsinə gəlincə isə Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, prioritetlərin hazırlanması prosesi hazırda son mərhələdədir. Məqsəd üzv dövlətlərlə birgə hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə və dayanıqlı inkişafa töhfəmizi artırmaq olacaq: "Qoşulmama Hərəkatının fəaliyyətinin əsaslarını təşkil edən tarixi "Bandunq Prinsipləri", - o prinsiplər ki, özündə bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, başqa ölkələrin suverenliyinə və ərazi bütövlüyünə qarşı fəaliyyətdən və güc tətbiqindən imtina, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların və əməkdaşlığın təşviqi, ədalətə və beynəlxalq öhdəliklərə hörmət kimi prinsipləri ehtiva edir, - tam olaraq Azərbaycan Respublikasının xarici siyasətinin ana xətti ilə uzlaşır. Azərbaycan Respublikasının QH-də sədrliyi zamanı fəaliyyəti, prioritetləri məhz bu təməl prinsiplər üzərində qurulacaq".

Hikmət Hacıyevin fikrincə, tərkibində 120 ölkəni birləşdirən bu hərəkata sədrlik etmək böyük siyasi iradə, məsuliyyət, diplomatik güc və imkanlar tələb edir. Azərbaycan Prezidenti İlham Əliyev qarşıdan gələn 3 il ərzində bu məsuliyyəti öz üzərinə götürməyə hazırdır və qadirdir.

Bir sözlə, oktyabrda keçiriləcək XVIII Zirvə Görüşü, Venesuelada sədrliyin ölkəmizə keçməsi həm Azərbaycana, həm də onun Prezidentinin müstəqil siyasətinə verilən ən yüksək qiymətdir. Hərəkata sədrlik dövrü isə Azərbaycan dövləti üçün yeni hədəflərin müəyyənləşməsində əsas istiqamət və mühüm istinad olacaq desək, yanılmarıq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İrəvan xanlığının tarixinə dair 4 adda əsər ispan və ərəb dillərində çapdan çıxıb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda İrəvan xanlığının tarixinə dair 4 adda əsər ispan və ərəb dillərində çapdan çıxıb.




Tarix İnstitutunun ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" və digər fundamental tədqiqatlar kimi bu əsərlər də Prezident İlham Əliyevin təşəbbüsü ilə yazılıb.

Bu kitabçalar Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "İrəvan xanlığının tarixinə dair 4 adda broşürün nəşr olunması" layihəsi çərçivəsində "Azərbaycan Tarixçiləri" İctimai Birliyi tərəfindən nəşr olunub. Layihənin rəhbəri və nəşrlərin elmi redaktoru Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, texniki redaktor isə fəlsəfə doktoru Mehri Xanbabayevadır. Bu əsərlər Tarix İnstitutunun elmi şurasının qərarı ilə çap olunub.

"İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı" və "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri" kitabçalarının müəllifi tarixçi alim Nazim Mustafadır. Əsərlərdə yazılır ki, erməni rəssamlarından Martiros Saryan, Setrak Arakelyan, Anuş Sahinyan və Qabriel Gürcyanın 1920-1930-cu illərdə çəkdikləri rəsm əsərlərində Göy məscid İrəvan şəhərinin simvolu kimi əks etdirilib. Hazırda Ermənistan rəsmiləri isə Göy məscidi "Fars məscidi" kimi təqdim edir və xaricdən gələn qonaqlara yaşı 200 ildən yuxarı bircə dənə də olsun ermənilərə məxsus tarixi abidə göstərə bilmirlər.

"İrəvan xanlığı: İrəvan qalası - qəhrəmanlıq qalası" və "Çuxursəd hakimləri və İrəvan xanları" kitabçalarının müəllifi isə tarixçi alim Güntəkin Nəcəflidir. Əsərlərdə qeyd edilir ki, İrəvan qalası Azərbaycan Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətainin göstərişi ilə səfəvi sərkərdəsi Rəvanqulu xan tərəfindən XVI əsrin əvvəllərində tikdirilib. İrəvan xanlığını Azərbaycanın yerli türk tayfalarının nümayəndələri olan xanlar idarə etmişlər.

Xatırladaq ki, İrəvan xanlığının tarixi ilə bağlı həmin nəşrlər bundan əvvəl ingilis, rus, erməni və fars dillərində də çap olunub.

# *UNESKO-Azərbaycan münasibətləri:*

## Əməkdaşlıqdan tərəfdaşlığadək keçilən mədəni yolun zirvəsində

Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliğidir. Bu, həm də beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan UNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib.

2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla evsahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir bu beynəlxalq mədəniyyət təşkilatının rəsmi tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu artıq ənənə halını alıb.

Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına evsahibliyi etmək hüququ əldə etmişdir. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbulu ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Bu il iyunun 30-dan iyulun 10-dək davam edən sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyev müvafiq sərəncam imzalamışdır. Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olunmuşdu.

"...Ölkəmizlə bu təşkilat arasında ötən 27 ildə bir sıra sahələrdə uğurlu əlaqələr qurulub. Biz fəal təmsilçilik və verdiyimiz töhfələrlə UNESKO-nun işində uğurla iştirak edirik" deyən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva belə mühüm toplantını qəbul etməyin böyük şərəf olduğunu bildirmiş, həmçinin həmin tarixi sessiyada ümumdünya və milli irsin qorunmasının Azərbaycanda dövlət siyasətinin mərkəzində dayandığını vurğulamışdır. Son 5 ildə ölkəmizdə 40 tarixi abidənin bərpa olunduğunu və yenidən qurulduğunu deyən Azərbaycanın Birinci vitse-prezidenti bununla da milli mədəniyyətimizin zənginləşdiyini diqqətə çatdırmışdır. İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qaya rəsmlərinin UNESKO-nun Dünya İrs Siyahısına daxil edildiyini bildirən Mehriban xanım Əliyeva musiqi xəzinəmizin inciləri olan muğam və aşıq sənətinin də bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edildiyini vurğulamışdır.

180-dən çox ölkədən 2500-dən çox nümayəndənin, eləcə də bir sıra nüfuzlu beynəlxalq təşkilatların rəhbər və məsul şəxslərinin iştirak etdiyi sessiyada Mehriban xanım Əliyeva həmçinin Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal edildiyini, bir milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyini, yüzlərlə tarixi və memarlıq abidəsinin dağıdıldığını bildirmişdir. "Sülh mədəniyyətinin toxumları dialoq və qarşılıqlı hörmətlə cücərə bilər" deyən Birinci vitse-prezident ölkəmizdə keçirilən və UNESKO-nun da tərəfdaşı olduğu Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətindən danışmışdır.

Bu günlərdə UNESKO-nun Baş direktoru xanım Odre Azulenin Azərbaycan Respublikası hökumətinə Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının yüksək səviyyədə keçirilməsi ilə bağlı göndərdiyi təşəkkür məktubunda da tərəflər arasındakı əməkdaşlığın nümunə olduğu vurğulanır.

Məktubda ölkəmizin UNESKO-nun bu nüfuzlu tədbirinə yüksək səviyyədə evsahibliyi etdiyi bildirilir və Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıq prosesi, onun təşkili, iclasların keyfiyyətli idarə edilməsinə görə minnətdarlıq ifadə olunur.

Baş direktor Bakıya səfəri zamanı Qobustan qoruğunu ziyarət etməkdən zövq aldığını isə xüsusi qeyd edir: "Mən şəxsən Qobustanın timsalında Azərbaycanın zəngin mədəni irsini kəşf etməkdən, Azərbaycan hökumətinin və Mədəniyyət Nazirliyinin bu məkanın qorunub saxlanılmasında, təbliğində nümayiş etdirdiyi səylərə şahidlik etməkdən xüsusilə məmnun oldum".

Məktub aşağıdakı fikirlərlə bitir: "Mən Bakını UNESKO və Azərbaycan arasında dinamik inkişaf edən münasibətlər fonunda tərk etdim və bu, məni çox məmnun etdi. Bir daha əmin oldum ki, Sizin dəstəyinizə daim etimad edə bilərəm".

UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler də Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Azərbaycan hökumətinə təşəkkür məktubu göndərib. Məktubda ölkəmizin bu mötəbər tədbirə yüksək səviyyədə evsahibliyi təqdir olunur. Bildirilir ki, Bakı sessiyasında gündəlikdə duran bir çox məsələlər zamanında və müvəffəqiyyətlə həllini tapıb.

Xanım Rossler Dünya İrs Mərkəzindəki həmkarları adından iclasların yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə, o cümlədən gündəlik planlaşdırmalara birbaşa cəlb olunan UNESKO katibliyinə hər cür lazımi kömək göstərən komandaya xüsusi minnətdarlığını vurğulayıb: "Biz iclasların keçirildiyi möhtəşəm məkanı, göstərilən peşəkarlığı, heyətin alicənablığını, yüksək səviyyədə təşkil olunan xidməti, iclasların koordinasiyasını həyata keçirən şəxslərin isti münasibətini xüsusi qiymətləndiririk".

Dünya İrs Mərkəzinin direktorunun məktubunda həmçinin Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayevin noyabrın 27-28-də UNESKO-nun Parisdəki mənzil-qərargahında keçiriləcək dünya irsi üzrə Konvensiyanın iştirakçısı olan dövlətlərin 22-ci ümumi iclasına dəvət edildiyi də göstərilir. Həmin iclasda Ümumdünya İrs Komitəsi 43-cü sessiyası sədrinin komitənin fəaliyyəti ilə bağlı hesabatının dinlənilməsi nəzərdə tutulur.

Mextild Rossler məktubun sonunda bir daha davamlı əməkdaşlığa, dünya irsi üzrə Konvensiyanın həyata keçirilməsində göstərilən dəstəyə görə Azərbaycan Respublikası hökumətinə minnətdarlığını bildirmişdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda ictimai çimərliklər yaradılır

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın nəcib təşəbbüsü ilə Bakı şəhərində ictimai çimərliklərin yaradılmasına başlanmışdır.







Paytaxt sakinləri və eləcə də şəhərin çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq birliyin təsisçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzlərinə və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklərin yaradılmasına başlanmışdır.

İlk olaraq belə çimərlik Səbail rayonunda, "Şıx" çimərliyi ərazisində, Salyan yolu 32 ünvanında (Bakı Şəhər Baş Gömrük İdarəsi ilə üzbəüz) dəniz kənarında 6 ha sahədə yaradılmışdır. Əvvəllər baxımsız vəziyyətdə olan ərazi təmizlənərək abadlaşdırılmış, burada 60 ədəd kölgəlik, 6 yerdə soyunub-geyinmə kabinələri, 2 yerdə duş, 2 yerdə 2 kabinəli sanitariya qovşağı, istirahətə gələn vətəndaşların nahar etmələri üçün 2 ədəd söhbətgah quraşdırılmış, futbol və voleybol meydançaları yaradılmış, dəniz kənarına uzanan yola asfalt çəkilmiş, 3500 kvadratmetr ərazidə avtomobil dayanacağı yaradılaraq asfaltlaşdırılmışdır.

Vətəndaşların istirahətinin təşkili üçün çimərlik ərazisinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazi boyunca zibil konteynerləri quraşdırılıb, əlavə abadlıq işləri görülüb.

Yaxın günlərdə Pirşağı və Buzovna qəsəbələrində yeni ictimai çimərlik istifadəyə veriləcək. Ümumilikdə isə paytaxtın dənizkənarı ərazilərində 7 yerdə belə çimərliklərin yaradılması nəzərdə tutulmuşdur.

"Şıx" ərazisində fəaliyyətə başlayan və digər ərazilərdə yaradılan ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyinin lazımi səviyyədə saxlanılması üçün burada xidmət personalı fəaliyyət göstərəcəkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Tank biatlonu"nda iştirak edəcək Azərbaycan tankçıları döyüş maşınlarının texniki vəziyyətini yoxlayıb





"Beynəlxalq Ordu Oyunları - 2019" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak edəcək tankçılarımız onların istifadəsinə verilən döyüş maşınlarına baxış keçiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tank heyətləri və texniki dəstək qrupu döyüş maşınlarının mühərrikləri, idarəetmə sistemləri və rabitə vasitələrinin texniki vəziyyətini yoxlayıblar. Komandalar tankın ştat silahından yoxlama atışları da icra ediblər.

Püşkatmanın nəticələrinə əsasən 23 komandanın iştirakı ilə keçiriləcək "Tank biatlonu" müsabiqəsində Azərbaycan tankçıları avqustun 3-də yarışlara başlayacaqlar.

Final estafeti avqustun 17-də keçiriləcək.

# "Artilleriya atəşinin ustaları" beynəlxalq müsabiqəsinin püşkatma mərasimi olub

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsinin püşkatma mərasimi keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, püşkatmada iştirak edən artilleriyaçılarımız təhlükəsizlik qaydaları, yarışların xüsusiyyətləri, keçirilmə şərtləri, atəş və döyüş hazırlığı tapşırıqlarının yerinə yetirilmə hədləri, eləcə də poliqonun maddi-texniki bazası ilə tanış olublar.

# XI Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub

Ayrı-ayrı ölkələrdən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəniyyətlərarası dialoqun təşviqinə xidmət edir



*Avqustun 1-də Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə keçirilən XI Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Qəbələ Mədəniyyət Mərkəzində keçirilən mərasimdə ölkəmizdə musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub. Məktubda deyilir:*







"Hörmətli festival iştirakçıları. Əziz dostlar.

Sizi - XI Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçılarını səmimi-qəlbdən salamlayır, festivalın işinə uğurlar diləyir, hər birinizə xoş arzularımı çatdırıram.

Mədəniyyət bütün dövrlərdə xalqlararası ünsiyyətin başlıca vasitəsi və sivilizasiyalar arasında qarşılıqlı əlaqələrin etibarlı körpüsü olub. Bu gün də müasir cəmiyyətin həyatında, dünyada gedən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dünya mədəniyyətlərinin qarşılıqlı münasibətləri mühüm əhəmiyyət kəsb edir. Bu amil nəzərə alınmadan beynəlxalq əlaqələrin, xalqlar arasında əməkdaşlığın səmərəliliyi hiss oluna bilməz.

Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə, xalqlar arasında olan birliyin daha da gücləndirilməsinə səy göstərib. Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biridir. Təsadüfi deyil ki, ölkəmiz mütəmadi olaraq mühüm beynəlxalq tədbirlərə - forum, konfrans və festivallara evsahibliyi edir. Azərbaycanın başladığı və mədəniyyətlərarası dialoqun təşviqi üçün əsl qlobal platformaya çevrilmiş "Bakı Prosesi" çərçivəsində bu ilin aprel ayında biz V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi etdik. İyun ayında Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirildi. Sessiyanın keçirildiyi tarix bizim üçün əlamətdar hadisə ilə yadda qaldı - Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkidə yerləşən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi.

Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilib. Bu münasibətlə payız aylarında təşkil olunacaq Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalına dünyanın bir çox ölkəsindən yüzlərlə iştirakçının qatılacağı gözlənilir. Bu tədbirlər Azərbaycanın təməl prinsiplərinin sülh və humanizm olduğunu bir daha sübut edərək dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrini bir araya toplayır. Bütün bunlar, sözsüz ki, xalqlararası mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran layihələrdir və mən də UNESKO-nun Xoşməramlı səfiri kimi bu tədbirləri daim dəstəkləyirəm.

Nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalı da mədəniyyətlərarası dialoqa böyük töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır. Ayrı-ayrı ölkələrdən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik və tədqiqatların mübadiləsinə, mədəniyyətlərarası dialoqun təşviqinə xidmət edir.

Festivalda iştirak edən hər kəsə cansağlığı, bütün yaradıcı insanlara tükənməz nailiyyətlər arzulayıram".

Açılış mərasimində çıxış edən Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov deyib: "Əsası Ulu Öndər Heydər Əliyevin adını daşıyan Fond tərəfindən qoyulan bu festival öz əhəmiyyətinə görə artıq dünyanın hər yerində tanınır. Bu festival ölkəmizlə bərabər inkişaf edir. İnkişaf edərək böyüyür, gözəlləşir, əhatə dairəsi genişlənir. Festival təkcə mədəni əlaqələrin deyil, eyni zamanda, insanlar arasında dostluğun, qardaşlığın, dövlətlər arasında yüksək mədəni əlaqələrin yaranmasında çox böyük əhəmiyyət daşıyır. İndi dünyanın ən ucqar ölkələrindən - uzaq Çindən, Amerikadan, İngiltərədən, Almaniyadan, Fransadan, Şərq ölkələrindən, Türkiyədən, İrandan bizim festivala qonaqlar gəlir. Bu festivalda dünyanın ən görkəmli sənət adamları iştirak edirlər. Onlar çox istedadlı insanlardır və hər kəs onları görmək, ifalarını dinləmək istəyir. Qəbələ festivalı ölkəmizin həyatında böyük uğurlar qazanan mədəni tədbirlərdən biridir. Biz böyük məmnuniyyətlə bu festivalın ideya rəhbəri, ilk yaranışından bugünə qədər də onun təşkilinə rəvac verən, indicə təbrikini eşitdiyimiz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, bu uğurlarımızın əsas müəllifi olan Mehriban Əliyevaya ürəkdən təşəkkür edirik".

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq artisti, Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri Fərhad Bədəlbəyli çıxışında builki festivalın, eyni zamanda, dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə bağlı yubiley tədbirlərinin keçirildiyi bir dövrə təsadüf etdiyini vurğulayaraq bu yubileyin Azərbaycanın mədəni həyatında çox böyük hadisə olduğunu bildirib. O, Qəbələ Beynəlxalq Musiqi Festivalına uğurlar arzulayıb.

Açılış mərasimindən sonra Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri geniş konsert proqramı ilə çıxış edib. Əməkdar incəsənət xadimi, professor Fəxrəddin Kərimovun dirijorluğu ilə gerçəkləşən konsertdə Xalq artistləri Ülviyyə Hacıbəyovanın (piano) və Yeganə Axundovanın (piano) çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

## 2 avqust Azərbaycan Kinosu Günüdür

# Ekran tariximizin ilkləri





**XIX əsrin sonlarında Parisin Kaputsino bulvarındakı "Qrand-Kafe"də Lui və Oqüst Lümyer qardaşları ixtira etdikləri aparatla çəkdikləri kiçik süjetləri nümayiş etdirirlər. O gün - 1895-ci ilin 28 dekabrı dünya kinosunun yaranması kimi tarixə düşür.**

Həmin illərdə Parisdən uzaqlarda, nefti ilə məşhurlaşan Bakıda iqtisadi və mədəni sahələrdə canlanma müşahidə olunurdu. Tükənməz sərvətləri, xüsusən nefti ilə yerli sahibkarlara, eləcə də bura axışan xarici kapitalistlərə böyük var-dövlət qazandıran bu şəhər dünyada baş verən yeniliklərə açıq idi. Fransada ixtira olunan sinematoqraf da Bakıya gəldi. 1898-ci il yanvarın 8-dən burada xarici filmlər göstərilməyə başlandı. İyunun 21-də Vasili-Vyatskinin teatr-sirkində Bakı həyatından bəhs edən "Şəhər bağında xalq gəzintisi", "Qatarın dəmiryol stansiyasına daxil olması", "Qafqaz və Merkuri" Cəmiyyətinə məxsus paroxodun limandan yola düşməsi" və "Bazar küçəsi sübh çağı" kinosüjetləri nümayiş olundu. 1898-ci il avqustun 2-də fotoqraf, rejissor, ssenarist, operator, redaktor, naşir, Bakı fotoqrafiya dərnəyinin yaradıcısı, Paris milli akademiyasının fotoqraf üzvü Aleksandr Mixayloviç Mişonun çəkdiyi, "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Qafqaz rəqsi" xronikal-sənədli və "İlişdin" bədii kinosüjetlərinin daxil edildiyi ayrıca proqram göstərildi.

"Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" kinosüjetləri 2001-ci ildə Azərbaycan Dövlət Film Fondunun təşəbbüsü ilə Fransanın kinoarxivindən Azərbaycana gətirildi. O zaman Prezident Heydər Əliyevin 18 dekabr 2000-ci il tarixli sərəncamı ilə avqustun 2-si Azərbaycan Kinosu Günü elan olundu.

## Azərbaycanda ilk bədii film

Sovet dövründə həmin tarix nəzərə alınmadı. 1916-cı il mayın 14-ü Azərbaycanda kinonun yarandığı gün kimi qeyd olundu. Bu, "Neft və milyonlar səltənətində" bədii filminin nümayiş olunduğu tarix idi. 1915-ci ildə Bakıda yaradılmış "Filma" Səhmdar Cəmiyyəti neft sənayeçilərinin vəsaiti ilə İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filmini çəkmək ücün Peterburqdan rejissor Boris Svetlov və operator Qriqori Lemberq dəvət edilmişdi. Azərbaycanda ilk səssiz film olan "Neft və milyonlar səltənətində" XX əsrin əvvəllərinin neft Bakısı, burada yaşayan yerli milyonçuların və fəhlələrin həyatından bəhs edirdi. Filmdəki Lütfəli bəy rolunu oynayan Hüseyn Ərəblinskinin adı ilk azərbaycanlı kino aktyoru kimi tarixə yazıldı. Tanınmış sənətkarlar - tarzən Qurban Pirimov və xanəndə Cabbar Qaryağdıoğlu da filmdə çəkildilər.

Boris Svetlov 1918-ci ilədək Azərbaycanda kino işi ilə məşğul oldu. 1916-cı ildə o, "Arvad", "Yeni tərzdə köhnə əhvalat" və digər filmləri çəkdi. Bakıda Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında ekranlaşdırılan ilk Azərbaycan kinokomediyasının da rejissoru Boris Svetlov oldu.

## Birinci milli kinorejissorumuz...

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Xarici ölkələrlə diplomatik, iqtisadi, mədəni əlaqələr quran milli hökumət kino sənətinin inkişafına da diqqət yetirirdi. Həmin il Bakıda "Kinematoqrafiya və teatr qulluqçuları şurası" yaradıldı. 1919-cu il mayın 28-də "Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə təntənə" adlı tammetrajlı film nümayiş etdirildi.

Bolşeviklər tərəfindən 1920-ci ilin aprelində ölkəmiz işğal olundu. İyulun 4-də İnqilab Komitəsinin sədri Nəriman Nərimanov kinematoqrafiya idarələrinin milliləşdirilməsi haqqında dekret imzaladı. Sovet Azərbaycanı kinosunun başlanğıcı sayılan "XI Qırmızı ordu hissələrinin Bakıda paradı", "Bakıda Şərq xalqlarının I qurultayı", "26 Bakı komissarı cənazələrinin dəfni", "XI Qırmızı ordu komandirləri dağlıların qonağıdır", "Pyotr meydanında iməcilik", "Sovet Azərbaycanının 1-ci ildönümü" xronikal filmləri çəkildi.

1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. Ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorlarının milliləşdirilməsi və birləşdirilməsi işlərini həyata keçirən AFKİ-nın nəzdində Bakıda "Təyyarə", "Edison", "Milyon", "Ladya", "Mədənçi" və başqa kinoteatrlar var idi. Həmin il aprelin 28-də Bakıda AFKİ nəzdində I Dövlət kinofabrikinin rəsmi açılışı oldu. 1924-cü ildə AFKİ ikiseriyalı "Qız qalası əfsanəsi" adlı bədii filmini təqdim etdi.

Rusiyadan Bakıya kinematoqrafçılar ezam olunurdu. O illərdə Azərbaycanda kino sahəsində əsas məsələlərdən biri milli kadrların hazırlanması idi. 1924-1928-ci illərdə "Azərbaycan Dövlət Kino"sunun rəhbəri olmuş Şamil Mahmudbəyov bu istiqamətdə müəyyən işlər gördü. 1925-ci ildə onun təşəbbüsü ilə AFKİ-nin nəzdində studiya yaradıldı. Cəfər Cabbarlı, Mikayıl Mikayılov və başqaları orada oxudular. Bakıya Sovet Rusiyasından tanınmış kinorejissorlar dəvət olunurdu. Eyni zamanda Cəfər Cabbarlı, Abbas Mirzə Şərifzadə və digər milli kadrlar kino yaradıcılığı işinə cəlb edildilər. 1925-ci ildə "Bismillah" filminə Abbas Mirzə Şərifzadə quruluş verdi. Bu filmlə o, Azərbaycanın birinci milli kinorejissoru oldu. İlk azərbaycanlı kinodramaturq Cəfər Cabbarlının "Hacı Qara" ssenarisini də Abbas Mirzə Şərifzadə 1928-ci ildə ekranlaşdırdı. 1932-ci ildə "Direktiv Bant" filminin əsas kollektivi milli kinematoqrafçılar - rejissor Ağarza Quliyev, operatorlar Əsgər İsmayılov və Mirzə Mustafayev oldu. 1930-cu ildə rejissor Beybolat Askarovun çəkdiyi "Qızıl kol" filmində isə ilk azərbaycanlı qadın kinorejissoru Qəmər Salamzadə rejissor köməkçisi işlədi.

AFKİ "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətsənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959), 1961-ci ildən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlandırıldı.

## "Mavi dənizin sahilində"...

1935-ci ildə milli kinomuzun ilk səsli filmi - "Mavi dənizin sahilində" çəkildi. Filmin rejissoru Boris Barnet, operatoru Mixail Kirillov idi. Film 1936-cı ildə ekranlara çıxdı. "Mavi dənizin sahilində"nin ikinci rejissoru Səməd Mərdanov Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda Sergey Eyzenşteynin emalatxanasında təhsil almışdı. O, Azərbaycan kino tarixində ilk ali təhsilli rejissor idi.

"Mavi dənizin sahilində"n sonra Azərbaycanda səsli kino əsərlərinin istehsalına başlanıldı. 1936-1941-ci illərdə 10-dan çox səsli film istehsal olundu.

1936-cı ildə rejissorlar B.Pumpyanski və V.Yeremeyevin "Şöhrətli Azərbaycan" kinoalmanaxında neftçi Piri Nuriyev və pambıqçı Qüdrət Səmədovdan bəhs edilirdi. Bu, Azərbaycanda ilk sinxronlu film idi.

1930-cu illərdə Azərbaycanda cizgi filminin əsası qoyuldu. 1933-cü ildə istehsal olunan "Cat" təlimat filmi cizgi filmi üsulu ilə yaradıldı. 1935-ci ildə Azərbaycan xalq nağılları əsasında "Abbasın bədbəxtliyi" cizgi filmi çəkildi.

Respublikamızda filmlərin Azərbaycan dilində səsləndirilməsinə 1937-ci ildə başlandı. Həmin il SSRİ-nin məşhur "Çapayev" bədii filmi dublyaj olundu.

İkinci Dünya müharibəsi illərində bədii film istehsalı zəiflədi. Əsasən xronikal-sənədli filmlər, kinojurnallar çəkilirdi. 1945-ci ildə rejissor Rza Təhmasib Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında "Arşın mal alan" filmini ekranlaşdırdı. Film keçmiş SSRİ-də, eləcə də dünyanın bir çox ölkəsində uğurla nümayiş etdirildi.

Azərbaycan kinosu 1950-ci illərdə yenidən inkişaf etməyə başladı. "Görüş", "Bəxtiyar", "Qara daşlar", "Qızmar günəş altında", "Onun böyük ürəyi", "Ögey ana", "Onu bağışlamaq olarmı?", "Böyük dayaq" və başqa bədii filmlərdə, "Xəzər neftçiləri haqqında dastan", "Dənizi fəth edən" və digər sənədli filmlərdə müxtəlif peşə sahiblərinin əməyi, həyatı əksini tapdı.

1960-cı ildə rejissor Hüseyn Seyidzadənin çəkdiyi "Koroğlu" bədii filmi Azərbaycan genişekranlı rəngli kinosunun ilk nümunəsi oldu. 1960-cı illərin sonu, 1970-ci illərin əvvəllərində Azərbaycan kinolarında yeni ideyalar, yeni baxış nəzərə çarpırdı. Xüsusilə rejissor Eldar Quliyevin 1969-cu ildə çəkdiyi "Bir cənub şəhərində" filmi ətrafında mübahisələr uzun müddət davam etdi.

1970-ci illərin sonu, 1980-ci illərdə SSRİ-də korrupsiyaya qarşı dövlət səviyyəsində aparılan mübarizə, sonra yenidənqurma, aşkarlıq siyasəti "İstintaq", "Anlamaq istəyirəm", "Onun bəlalı məhəbbəti", "Şeytan göz qabağında" və başqa filmlərdə əks olundu. 1980-ci illərdən başlayaraq Azərbaycan kinosunda da sovet hakimiyyətinin hökmünün zəiflədiyini bəlli edən "Bağlı qapı arxasında", "Özgə ömür", "Təxribat", "Sahilsiz gecə", "Lətifə" və başqa filmlər çəkildi.

İlk fantastik Azərbaycan bədii filmi - "Əlaqə" 1989-cu ildə lentə alındı.

SSRİ-nin süqutundan sonra 1990-cı illərdə keçid dövrünü yaşayan Azərbaycan kinosu da çətin vəziyyətə düşdü. Sayca az filmlər çəkildi. "Fəryad", "Ağ atlı oğlan", "Özgə vaxt", "Biz qayıdacağıq", "Sarı gəlin", "Lal çinar", "Arxada qalmış gələcək" kimi filmlərdə Qarabağ müharibəsinin gətirdiyi bəlalardan bəhs edildi.

İndi Azərbaycanın kino sənəti yeni mərhələdədir. Həm kinostudiyada, həm də dövlət və özəl televiziyalarda yeni bədii və sənədli filmlər çəkilir. Azərbaycan kinosevərləri kino işçilərimizdən ölkəmizin tarixi həqiqətlərini, mədəniyyətini dünayaya göstərə biləcək daha gözəl filmlər gözləyirlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qəbələ: "Kamera konsertində Avropa bəstəkarlarının əsərləri səsləndirilib"

Qəbələ Beynəlxalq Musiqi Festivalının builki proqramı da rəngarəngliyi ilə seçilir. Festivalın ikinci günü tamaşaçılara kamera konserti "Cello Extravaganza" təqdim olunub. Konsertdə festivalın təşkilatçı qurumlarının təmsilçiləri, yerli musiqisevərlər, şəhərin qonaqları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Konqres Mərkəzinin zalında keçirilən kamera konsertində festivalın bədii rəhbərlərindən biri, dünya şöhrətli musiqiçi Dmitri Yablonski (violonçel, İsrail-ABŞ), həmçinin Rusiyadan gəlmiş violonçel ifaçıları Boris Andirianov, Anna Koşkina və Janna Miniotas maraqlı konsert proqramı ilə çıxış ediblər.

Konsertdə J.Offenbaxın, İ.S.Baxın, C.Sollimanın, A.Minskinin, G.Qusevin, Q.Millerin, G.Qladkov-B.Andrianovun və E.Fransininin əsərləri səsləndirilib.

Festivalın proqramına uyğun olaraq, axşam saat 21:00-da Mədəniyyət Mərkəzində XI Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçiriləcək.


## Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamenti *açıq tender elan edir*

Təkrar

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda göstərilən LOT üzrə tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

LOT-3. Kommunal təyinatlı maşın və mexanizmlərin alınması

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər LOT üçün 100 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra göstərilmiş ünvandan tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir.

Təşkilat: Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti

Beynəlxalq Bankın Nərimanov filialı
Kod: 805540
VÖEN: 9900001881
M/h: AZ03NABZ01350100000000002944
SWIFT BIK: IBAZAZ2X
H/h: AZ14IBAZ38060019449887596206
VÖEN: 1500116861

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 26.08.2019-cu il saat 17:00-dək aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*
- *analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat;*
- *göstərilən işlərin yerinə yetirilməsi üçün FHN tərəfindən verilmiş razılıq (lisenziya) sənədi;*
- *tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifinə onun ümumi dəyərinin 1 faizi məbləğində bank zəmanəti ilə təminat verilməlidir.*

*Həmin təminat zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır.*

İddiaçılar LOT üzrə tender təkliflərini 02.09.2019-cu il saat 17:00-a qədər aşağıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender proseduru 03.09.2019-cu il saat 16:00-da Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin binasında (Ceyhun Hacıbəyli küç., 220 (keçmiş N.Yusifbəyli küç. 73)) keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Tamella Nağıyeva, telefon: 465-62-29.

*Tender komissiyası*

# Sumqayıt Şəhər İcra Hakimiyyəti

## 2019-cu ildə avtomobil yollarının asfalt örtüyünün təmirinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.**

**LOT 1 -** Şəhər avtomobil yollarının asfalt örtüyünün təmiri

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun yuxarıda qeyd olunan LOT-lar üzrə öz yazılı tender təkliflərini imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərfdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər LOT üçün 350 (üç yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər. Əlaqələndirici şəxs: Əhmədov Rəhimdil Qılınc oğlu, telefon: (018) 655-14-48

**Dövlət Xəzinədarlığı Agentliyi**

**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142340**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədlər (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) **06 sentyabr 2019-cu il saat 17:00-a qədər,** tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə **16 sentyabr 2019-cu il saat 17:00-a** qədər Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17 sentyabr 2019-cu il saat 15:00-da** Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Bakı şəhəri və ətrafında bir, iki və üçotaqlı, Gəncə şəhəri, Mingəçevir şəhəri və Göygöl rayonunda bir, iki və üçotaqlı, Lənkəran şəhəri, Lerik şəhəri və Astara rayonunda iki və üçotaqlı, Qəbələ şəhəri, Göyçay şəhəri və İsmayıllı rayonunda iki və üçotaqlı, Şirvan şəhəri və Hacıqabul rayonunda iki və üçotaqlı olmaqla ümumilikdə 369 mənzilin satın alınması.

Təklif olunan mənzillər təmirli olmalı, kommunikasiya xətləri mövcud olmalı və kommunal borcları olmamalı və mənzillərin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən verilmiş çıxarışları olmalıdır.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Tender komissiyası, (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: 50,00 (əlli) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **24 avqust 2019-cu il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **04 sentyabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **05 sentyabr 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Təmiz Şəhər" ASC öz təsərrüfat sahələrində çalışan işçilər üçün təhlükəsiz əmək şəraitinin təmin edilməsi ilə bağlı xüsusi mühafizə vasitələrinin satın alınması məqsədilə keçirdiyi açıq tenderdə "EVİM TEKSTİL" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 may 2019-cu il tarixdə elan edilmiş "53 adda dəftərxana ləvazimatlarının satın alınması" ilə bağlı açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "İnci Group of Companies" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "İnci Group of Companies" MMC arasında 136 570,37 manat məbləğində 24 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Avqustun 2-də bəzi bölgələrdə yağış yağacaq

Azərbaycanda avqustun 2-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 23-27°, gündüz 30-35° isti, Bakıda gecə 25-27°, gündüz 33-35° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 755 millimetr civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 35-40 faiz təşkil edəcək.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 33-38° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 20-25° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 32-37° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 28-33° isti, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 32-37° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimal edilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-26°, gündüz 30-35° isti, dağlarda gecə 16-21°, gündüz 25-30° isti olacağı gözlənilir.

# 88 ölkədən Bakıya gələn Olimpiadaçı İstedadların Rəqəmsal Sponsoru "Azercell"dir

## Lider mobil operator Azərbaycanın evsahibliyi etdiyi 31-ci Beynəlxalq İnformatika Olimpiadasına dəstək olur

İnformasiya-kommunikasiya texnologiyalarının insan həyatının bütün sahələrinə sürətlə nüfuz etdiyi dövrdə cəmiyyətin rəqəmsal savadının artırılmasını öz fəaliyyətinin ən prioritet istiqamətlərinin birinə çevirən "Azercell Telekom" növbəti təşəbbüslərlə çıxış etməyə davam edir.

Bu il paytaxt Bakıda keçiriləcək dünyada kompüter elmi sahəsində gənclər arasında ən nüfuzlu yarışlardan hesab olunan 31-ci Beynəlxalq İnformatika Olimpiadasında "Azercell" şirkəti İstedadların Rəqəmsal Sponsoru qismində təmsil olunacaq. Xatırladaq ki, 2017-ci ildən etibarən "Azercell" şirkəti Təhsil Nazirliyi ilə birgə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi vasitəsilə azərbaycanlı olimpiadaçılar üçün xüsusi hazırlıq məşğələlərinin təşkilində iştirak edir. İstedadların Rəqəmsal Sponsoru olmaqla yanaşı, "Azercell" şirkəti həm də yarışmaçıları və onları müşayiət edən heyəti Azərbaycanda olduqları müddət ərzində mobil internet və xüsusi hədiyyələrlə də təmin edəcək.

Beynəlxalq İnformatika Olimpiadası Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü, ADA Universiteti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və digər dövlət qurumlarının dəstəyi ilə keçirilir. Əlavə olaraq, olimpiadanın rəsmi Qlobal Sponsoru qismində "Acer" şirkəti və İstedad Sponsoru qismində PAŞA Bank çıxış edir.

1989-cu ildən etibarən keçirilən Beynəlxalq İnformatika Olimpiadası hər il dünyanın bir çox ölkəsindən məktəblilərə bilik və bacarıqlarını nümayiş etdirməyə imkan yaradır. Bundan əvvəl olimpiada dünyanın 30-a yaxın ölkəsində baş tutmaqla Zaqreb, Tehran, Afina, Qahirə, Almatı, Kazan və s. şəhərlərində keçirilib. Bu il ölkəmizdə baş tutacaq Beynəlxalq İnformatika Olimpiadasında iştirak üçün Azərbaycan komandası da daxil olmaqla, 88 ölkədən 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyətləri qeydiyyatdan keçmişdir. Bu nüfuzlu beynəlxalq yarışda ölkəmizi indiyə qədər 24 dəfə təmsil edən Azərbaycan komandaları müxtəlif illərdə 1 gümüş və 4 bürünc olmaqla ümumilikdə 5 medal qazanıb.

Xatırladaq ki, "Azercell Telekom" yarandığı vaxtdan ölkədə gənc nəslin inkişafına, məktəbli və tələbələrin müxtəlif sahələrdə bilik və bacarıqlarının artırılmasına, eləcə də ölkədə informasiya-kommunikasiya, kompüter mühəndisliyi istiqamətində kadrların yetişməsinə xüsusi proqramlar, yerli və beynəlxalq müsabiqələr səviyyəsində öz dəstəyini göstərməkdə davam edir.

***"Azərbaycan"***

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.08.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

# Atəşkəs rejimi 17 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 11.06.2019-cu il tarixdə keçirilmiş "İnformasiya Texnologiyaları üzrə avadanlıqların" satın alınması üzrə açıq tender üsulu ilə satınalma müsabiqəsində "Ultra Technologies" MMC ƏDV daxil olmaqla 610.714,66 (altı yüz on min yeddi yüz on dörd manat 66 qəpik) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 29 iyul 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata açıq tenderdə iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 may 2019-cu il tarixdə elan edilmiş "360 ədəd 2 kq-lıq (karbon), 276 ədəd 6 kq-lıq (tozlu), 80 ədəd 6 kq-lıq (karbon) yanğınsöndürmə balonlarının və 80 ədəd tam komplektləşdirilmiş yanğınsöndürmə lövhələrinin alınması və 2000 ədəd 6 kq-lıq (tozlu) yanğınsöndürmə balonlarının "Aztelekom" MMC-nin respublikanın regionları üzrə TKQ-da doldurulması xidmətinin satın alınması" ilə bağlı açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Red Line" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Red Line" MMC arasında 76 157,20 manat məbləğində 24 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun aparatına təsərrüfat mallarının satın alınması üçün

### *kotirovka sorğusu elan edir*

Təkliflər 09 avqust 2019-cu il saat 15:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına təqdim olunmalıdır. Əlavə məlumatı Tender komissiyasından əldə etmək olar.

**Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 may 2019-cu il tarixdə elan edilmiş "1000 kq qaynaq lentin, 100 km şüşə lentin, 500 dəst ETZK-1 qaz buraxmayan muftalar üçün VİLAD A-31 və VİLAD B-31 kompaut dəsti və 100 dəst kəndir blok dəstinin satın alınması" ilə bağlı açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Buta Supply" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Buta Supply" MMC arasında 136 644,00 manat məbləğində 25 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Təlatüm Quliyev və Milli Məclis Aparatı Ümumi şöbəsinin əməkdaşları Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Aqşin Məmmədzadə, Elçin Quliyev, Sarvan Sadıqov, Ayxan Kazımov, Yunis İsmayılov, İsmayıl Cəfərov, Rüfət Ələkpərov, Səməd Sultanov, Sədaqət Bağırova, Ceyhun Əliyev və Əsmər İsmayılova şöbə müdirinin müavini Fuad Məmmədova əzizi

**ELNUR NUHOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsi Akademiyasının rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyəti respublikanın Əməkdar memarı Xəlil Cəfərova və Maya xanıma anası

**SURABƏYİM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sədri və kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8986
Sifariş 2500
Qiyməti 40 qəpik